| | |
|---|---|
| **AKTIN NÖVÜ** | AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARLARI |
| **QƏBUL EDİLDİYİ TARİX** | 28.12.2019 |
| **QEYDİYYAT NÖMRƏSİ** | 510 |
| **ADI** | Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq xüsusi razılıq (lisenziya) verilməsi üçün tələb olunan əlavə şərtlər barədə" 2002-ci il 7 noyabr tarixli 174 nömrəli, "Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2006-cı il 7 dekabr tarixli 260 nömrəli, "Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2006-cı il 29 dekabr tarixli 280 nömrəli, "Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2007-ci il 22 yanvar tarixli 10 nömrəli, "Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2007-ci il 25 yanvar tarixli 14 nömrəli, "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" 2012-ci il 13 noyabr tarixli 259 nömrəli, "Yaşıllıqlara qulluq, onların xəstəlik və zərərvericilərdən mühafizəsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2016-cı il 14 iyun tarixli 227 nömrəli və "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında |
| **RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ** | Xalq Qəzeti (Dərc olunma tarixi: 30-12-2019, Nəşr Nömrəsi: 292), Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-12-2019, Nəşr nömrəsi: 12, Maddə nömrəsi: 2091) |
| **QÜVVƏYƏ MİNMƏ TARİXİ** | 30.12.2019 |
| **AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU** | 150.010.000<br>420.010.000 |
| **HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ** | 14201912280510 |
| **HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX** | 29.12.2019 |

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq xüsusi razılıq (lisenziya) verilməsi üçün tələb olunan əlavə şərtlər barədə" 2002-ci il 7 noyabr tarixli 174 nömrəli, "Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2006-cı il 7 dekabr tarixli 260 nömrəli, "Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2006-cı il 29 dekabr tarixli 280 nömrəli, "Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2007-ci il 22 yanvar tarixli 10 nömrəli, "Fitosanitar nəzarəti sahəsində bəzi normativ hüquqi aktların təsdiq edilməsi haqqında" 2007-ci il 25 yanvar tarixli 14 nömrəli, "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" 2012-ci il 13 noyabr tarixli 259 nömrəli, "Yaşıllıqlara qulluq, onların xəstəlik və zərərvericilərdən mühafizəsi Qaydası"nın təsdiq edilməsi haqqında" 2016-cı il 14 iyun tarixli 227 nömrəli və "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında**

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

"Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2019-cu il 3 may tarixli 1577-VQD nömrəli Qanununun tətbiqi və "Fitosanitar nəzarəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 2 avqust tarixli 441 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 may tarixli 712 nömrəli Fərmanının 1.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 7 noyabr tarixli 174 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, 11, maddə 676; 2004, 2, maddə 115; 2005, 9, maddə 860, 12, maddə 1234; 2006, 2, maddələr 204, 205, 9, maddə 822, 12, maddə 1159; 2007, 8, maddələr 849, 857, 10, maddə 1025; 2008, 1, maddə 37, 10, maddə 928, 12, maddələr 1110, 1114; 2009, 1, maddələr 22, 32, 2, maddə 156, 4, maddə 279, 8, maddə 670, 9, maddələr 739, 754, 12, maddə 1078; 2010, 3, maddə 264; 2011, 1, maddə 63; 2012, 9, maddə 931; 2013, 2, maddə 203, 6, maddə 735; 2014, 10, maddə 1290; 2015, 5, maddə 608, 12, maddə 1567; 2016, 1, maddə 179, 4, maddə 807, 9, maddə 1585; 2018, 8, maddə 1817, 12 (II kitab), maddə 2737) ilə təsdiq edilmiş "Fəaliyyət növlərinin xüsusiyyətindən asılı olaraq xüsusi razılıq (lisenziya) verilməsi üçün tələb olunan əlavə şərtlər"in 50.1.3-cü və 50.2.2-ci yarımbəndlərində "Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidmətinin" sözləri "Qida Təhlükəsizliyi Agentliyinin" sözləri ilə əvəz edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 7 dekabr tarixli 260 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, 12, maddə 1151; 2008, 1, maddə 39; 2009, 1, maddə 34; 2010, 2, maddə 150; 2014, 12, maddə 1664; 2015, 2, maddə 218; 2016, 11, maddə 1947; 2018, 10, maddə 2162) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ərazisinə idxal olunan karantin nəzarətində olan materiallarda karantin tətbiq edilən zərərli orqanizmlər aşkar olunduqda onların fitosanitar nəzarəti məntəqələrində və ya yükün təyinat yerlərində zərərsizləşdirilməsi qaydası da daxil olmaqla, karantin nəzarətində olan materialların zərərsizləşdirilməsi Qaydaları"nın 6-cı hissəsinin ikinci abzasında "Tarif (qiymət) Şurası" sözləri "Nazirlər Kabineti" sözləri ilə əvəz edilsin.

3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 29 dekabr tarixli 280 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2006, 12, maddə 1165; 2008, 9, maddə 853; 2009, 1, maddə 34; 2010, 1, maddə 66; 2016, 11, maddə 1946; 2017, 11, maddə 2182; 2018, 10, maddə 2162) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasına gətirilmiş və respublikadan aparılması nəzərdə tutulan karantin nəzarətində olan materiallara fitosanitar karantin baxışının keçirilməsi və ekspertizanın aparılması Qaydaları"nın 26-cı hissəsində "Tarif (qiymət) Şurası" sözləri "Nazirlər Kabineti" sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 22 yanvar tarixli 10 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, 1, maddə 54; 2009, 1, maddə 32; 2016, 11, maddə 1948; 2018, 4, maddə 805, 8, maddə 1817, 10, maddə 2162) ilə təsdiq edilmiş "Pestisidlərin, bioloji preparatların və aqrokimyəvi maddələrin dövlət sınağının aparılması, qeydiyyata alınması və istifadəsinə icazə verilmiş preparatların siyahısına daxil edilməsi Qaydaları"nın 27-ci hissəsinin ikinci abzasında "Tarif (qiymət) Şurası" sözləri "Nazirlər Kabineti" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 yanvar tarixli 14 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2007, 1, maddə 58; 2009, 1, maddə 34; 2014, 10, maddə 1297; 2015, 2, maddə 219; 2016, 11, maddə 1949; 2017, 9, maddə 1748; 2018, 10, maddə 2162) ilə təsdiq edilmiş "Fitosanitar nəzarəti məntəqələrinin yerləşdirilməsi və fəaliyyəti Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

5.1. 2-ci hissə üzrə:

5.1.1. birinci abzasda "Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidmətinin (bundan sonra – Dövlət Xidməti)" sözləri "Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik)" sözləri ilə əvəz edilsin;

5.1.2. ikinci abzas aşağıdakı redaksiyada verilsin:

"Dövlət sərhədinin buraxılış məntəqələrindən keçirilmiş yüklər (mallar, məhsullar) üzərində fitosanitar nəzarəti ilə bağlı tədbirləri gömrük orqanları ilə birlikdə Agentlik həyata keçirir.";

5.2. 3-cü hissədə, 4.4-cü bənddə, 8-ci, 9-cu (hər üç halda), 11-ci hissələrdə və 14.4-cü bənddə ismin müvafiq hallarında "Dövlət Xidməti" sözləri ismin müvafiq hallarında "Agentlik" sözü ilə əvəz edilsin;

5.3. 6-cı hissədə "dövlət fitosanitar nəzarəti xidməti" sözləri "işçiləri" sözü ilə əvəz edilsin;

5.4. 7-ci hissə ləğv edilsin;

5.5. 10-cu hissədə "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə razılaşdırılmaqla Dövlət Xidmətinin rəisi" sözləri "Agentliyin sədri" sözləri ilə əvəz edilsin;

5.6. 12-ci hissədə "Dövlət Xidmətinin təqdimatı əsasında Azərbaycan Respublikası kənd təsərrüfatı naziri" sözləri "Agentliyin sədri" sözləri ilə əvəz edilsin.

6. "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi haqqında" Azərbaycan Respublikası

Qanununun tətbiqi ilə bağlı bəzi normativ hüquqi aktların təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 13 noyabr tarixli 259 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, 11, maddə 1198; 2018, 8, maddə 1817) aşağıdakı dəyişikliklər edilsin:

6.1. həmin Qərarla təsdiq edilmiş 2 nömrəli əlavə - "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsinə və səmərəli istifadəsinə dövlət nəzarətinin təşkili Qaydaları"nın 2.9.5-ci yarımbəndi ləğv edilsin;

6.2. həmin Qərarla təsdiq edilmiş 5 nömrəli əlavə - "Ölkə daxilində genetik modifikasiya olunmuş bitkilərin mövcudluğu və yayılma zonasının aşkarlanması Qaydası"nın 2.6-cı bəndinin birinci cümləsində "Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidmətinin" sözləri "Nazirliyinin" sözü ilə və ikinci cümləsində "Dövlət Fitosanitar Nəzarəti Xidmətində" sözləri "Aqrar Xidmətlər Agentliyində" sözləri ilə əvəz edilsin;

6.3. həmin Qərarla təsdiq edilmiş 6 nömrəli əlavə - "Mədəni bitkilərin milli genefonduna aid edilən bitkilərin və onların genetik ehtiyat nümunələrinin Azərbaycan Respublikasının gömrük ərazisindən çıxarılması Qaydası və Şərtləri"nin 12-ci hissəsində "Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Fitosanitar Nəzarəti Xidməti" sözləri "Qida Təhlükəsizliyi Agentliyi" sözləri ilə əvəz edilsin;

6.4. həmin Qərarla təsdiq edilmiş 7 nömrəli əlavə - "Mədəni bitkilərin genetik ehtiyatlarının mühafizəsi və səmərəli istifadəsi üzrə idarəetmə sisteminə daxil olan Elmi-Texniki Şuranın Əsasnaməsi"nin 4.3-cü bəndində "Dövlət Fitosanitar Xidməti" sözləri "Aqrar Xidmətlər Agentliyi" sözləri ilə əvəz edilsin.

7. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 iyun tarixli 227 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, 6, maddə 1204) ilə təsdiq edilmiş "Yaşıllıqlara qulluq, onların xəstəlik və zərərvericilərdən mühafizəsi Qaydası"nın 3.2-ci bəndində "Kənd Təsərrüfatı Nazirliyi" sözləri "Qida Təhlükəsizliyi Agentliyi" sözləri ilə əvəz edilsin.

8. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, 10, maddə 2155; 2019, 3, maddələr 528, 534, 544, 563, 566, 568, 4, maddə 753, 5, maddələr 935, 945, 971, 7, maddə 1325, 8, maddə 1475, 10, maddə 1677; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 27 noyabr tarixli 458 nömrəli Qərarı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının büdcə gəlirlərinin təsnifatı"nın 1.4.2.5.7.7-ci yarımmaddəsindən "nəzarəti" sözü çıxarılsın.

**Əli ƏSƏDOV**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 28 dekabr 2019-cu il
510